1_Layout 1 26.04.2018 18:32 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 09 (525)

30 aprel 2018-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ANDİÇMƏ MƏRASİMİ KEÇİRİLİB

***AZƏRTAC xəbər verir ki, aprelin 18-də Milli Məclisdə keçirilən andiçmə mərasimində Azərbaycanın dövlət rəsmiləri, hökumətin üzvləri, Milli Məclisin deputatları və Prezidentin ailə üzvləri iştirak ediblər.***



Prezident İlham Əliyevi müşayiət edən fəxri kortej Azərbaycan Respublikası Prezidentinin andiçmə mərasiminin keçirildiyi Milli Məclisə yola düşüb.

Mərasim iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi hərarətlə qarşılayıblar.

Ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Heydər oğlu Əliyevin andiçmə mərasimi açıq elan olunub.

Silahlı Qüvvələrin əsgərləri Azərbaycan Respublikasının Dövlət Bayrağını və Azərbaycan Prezidentinin ştandartını (bayrağını) təntənəli marşın sədaları altında səhnəyə gətiriblər.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev və Konstitusiya Məhkəməsinin hakimləri səhnəyə dəvət olunublar.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad ABDULLAYEV çıxış edərək deyib:

- Hörmətli xanımlar və cənablar.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 2018-ci il 17 aprel tarixli qərarı ilə Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Mərkəzi Seçki Komissiyasının nəticələrini təsdiq edərək, cənab İlham Heydər oğlu Əliyevi Azərbaycan Respublikasının Prezidenti elan etmişdir.

Azərbaycan Respublikasının Prezidenti seçilmiş cənab İlham Heydər oğlu Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 103-cü maddəsinə uyğun olaraq, Konstitusiya Məhkəməsi hakimlərinin iştirakı ilə andiçməyə dəvət olunur.

**Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV əlini Azərbaycan Respublikası Konstitusiyasının üzərinə qoyaraq and içdi:**

- Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!

Azərbaycan Respublikasının Dövlət Himni səsləndi.

**Sonra Prezident müqəddəs Qurani-Şərifə əl basaraq and içdi:**

- Əlimi Qurani-Şərifə basaraq and içirəm: Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli mənəvi dəyərlərə və ənənələrə sadiq qalacağam, onları daim uca tutacağam.

Prezident İlham Əliyev təzim edərək, Azərbaycanın dövlət bayrağını öpüb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimində nitq söyləyib.

Bu seçkilərdə göstərilən yüksək etimada görə Azərbaycan xalqına dərin təşəkkürünü bildirən Prezident İlham Əliyev qeyd edib ki, bundan sonra da xalqa və Vətənə ləyaqətlə xidmət edəcək: "Prezident seçkiləri Azərbaycan xalqının iradəsini əks etdirib. Azərbaycan xalqı görülən işlərə yüksək qiymət vermişdir, görülən işlərə səs vermişdir. İnkişafa, tərəqqiyə, təhlükəsizliyə, gələcək inkişafımıza səs vermişdir".

Son 15 ildə böyük uğurlara imza atıldığını deyən Respublika Prezidenti vurğulayıb ki, bu illər ərzində Azərbaycan xalqı təhlükəsizlik, sabitlik şəraitində yaşamışdır: "Bu 15 il ərzində dünyanın müxtəlif bölgələrində, bizim bölgəmizdə, Avropada çox təhlükəli proseslər baş verirdi: qanlı toqquşmalar, müharibələr, vətəndaş müharibələri, dövlət çevrilişləri. Yəni, təhlükəsizlik baxımından son 15 il çox gərgin keçmişdir. Azərbaycanda isə xalqımız təhlükəsizlik şəraitində yaşamışdır. Biz daxili risklərin hamısını aradan qaldırdıq, xarici risklərdən isə özümüzü qoruya bilmişik, bu gün də qoruyuruq, əminəm ki, bundan sonra da qoruyacağıq".

Dövlətimizin başçısı bildirib ki, Azərbaycan ölkə daxilində dinlərarası, millətlərarası münasibətlərin tənzimlənməsində çox böyük uğurlara nail olub və biz son 15 il ərzində bunu dünyaya nümayiş etdirmişik: "Təkcə ona görə yox ki, özümüzü göstərək, ona görə ki, dünyada da müsbət meyillər üstünlük təşkil etsin. Əfsuslar olsun ki, son 15 il ərzində dünyada bu istiqamətdə çox təhlükəli proseslər cərəyan edib. İslamofobiya, ksenofobiya, ayrı-seçkilik artıq bəzi ölkələrdə dövlət siyasətinə çevrilir, başqa millətlərin, dinlərin nümayəndələrinə mənfi münasibət göstərilir. Ona görə biz çalışmışıq və bundan sonra da çalışacağıq ki, öz nümunəmizi göstərərək sübut edək ki, multikulturalizm yaşayır və yaşamalıdır".

Azərbaycan Prezidenti qeyd edib ki, biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində beynəlxalq təşkilatların dəstəyini tam qazana bilmişik, Ermənistanın işğalçı siyasətini ifşa etmişik: "Nail ola bilmişik ki, Ermənistan bu gün bütün regional layihələrdən təcrid edilmiş vəziyyətdədir. BMT Təhlükəsizlik Şurasının qətnamələri münaqişənin həlli üçün əsas bazadır, hüquqi bazadır. Dünyaya bir daha sübut edə bilmişik ki, biz haqlıyıq".

Prezident İlham Əliyevin sözlərinə görə, son 15 il ərzində ordu quruculuğu prosesi sürətlə gedib: "Bəzi hallarda bizi tənqid edirdilər ki, siz nəyə görə bu məsələlərə bu qədər vəsait xərcləyirsiniz. Ancaq həyat göstərdi ki, biz düzgün siyasət aparmışıq. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Təchizat, silah-sursat, texnika, döyüş qabiliyyəti baxımından ordumuz güclü ordular sırasındadır. Ordumuz üçün nə lazımdırsa, biz onu da təmin edirik. Ən müasir silahlar alınır və bundan sonra da alınacaq.

Ordumuzun gücünü düşmən də gördü. Aprel döyüşləri bizim şanlı tariximizdir, böyük qələbəmizdir. Azərbaycan Ordusu Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının torpaqlarının bir hissəsini işğalçılardan azad etdi, minlərlə hektar torpağa biz nəzarət edirik. Bu torpaqlara həyat qayıdır, bu torpaqlarda Azərbaycan bayrağı dalğalanır, insanlar qayıdır, yeni qəsəbə salınıbdır. Bizim hərbi qələbəmiz Azərbaycan xalqının gücünü, yenilməz ruhunu göstərir. Onu göstərir ki, Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. Bunu göstərir ki, biz öz torpaqlarımızı azad edəcəyik. Buna nail olmaq üçün daha da güclü olmalıyıq və olacağıq".

Son 15 ildə sosial məsələlərin həllinə çox böyük diqqətin göstərildiyini nəzərə çatdıran Respublika Prezidenti bildirib ki, ötən müddət ərzində maaşlar təxminən 7 dəfə, pensiyalar 10 dəfədən çox artıb: "Sosial infrastruktur yaradılır. 3100-dən çox məktəb tikilib və təmir edilib. 640-dan çox xəstəxana tikilib və təmir edilib. Bölgələrdə 43 Olimpiya İdman Mərkəzi yaradılıb. Yəni, sosial siyasət daim diqqət mərkəzindədir. Dəfələrlə bu məsələ ilə bağlı fikrimi bildirmişəm, bir daha demək istəyirəm ki, gələcək fəaliyyətimdə də Azərbaycan vətəndaşının maraqları, onun rifahı daim diqqət mərkəzində olacaqdır.

Nəzərə alsaq ki, növbəti illərdə biz çox ciddi islahatlar aparacağıq, islahatları dərinləşdirəcəyik, əminəm ki, vətəndaşlarımızın yaşayış səviyyəsi daha da yaxşılaşacaqdır. Yoxsulluğa qarşı mübarizədə Azərbaycan böyük uğurlara imza atıb. Demək olar ki, bu məsələlərlə məşğul olan bütün beynəlxalq təşkilatlar bunu nümunə kimi göstərirlər ki, yoxsulluq təxminən 50 faizdən 5,4 faizə düşübdür. İşsizliklə bağlı böyük işlər görülüb. İşsizlik Azərbaycanda 5 faiz səviyyəsindədir".

Son 15 il ərzində iqtisadi islahatların aparıldığını və bu illər ərzində iqtisadi məsələlərə xüsusi diqqət yetirildiyini dilə gətirən dövlətimizin başçısı vurğulayıb ki, ancaq iqtisadiyyatı güclü olan ölkələr müstəqil siyasət apara bilərlər: "Əgər sən kimdənsə asılısansa, - ya kreditdən asılısan, ya başqa dövlətdən asılısan, - heç vaxt, sözün əsl mənasında, müstəqil siyasət aparmaq iqtidarında olmayacaqsan. Ona görə biz çalışırdıq ki, iqtisadi müstəqilliyə çataq və buna da nail olduq. Biz indi heç bir kreditə möhtac deyilik, özümüz kreditlər veririk. Bizim dövlət borcumuz ümumdaxili məhsulumuzun 20 faizini təşkil edir. Mən qarşıya vəzifə qoymuşam və biz gələcək illərdə dövlət borcumuzu daha da aşağı səviyyəyə salmalıyıq. İqtisadiyyat son 15 il ərzində 3,2 dəfə artıbdır. Bu, çox böyük göstəricidir.

Sənaye istehsalı 2,6 dəfə artmışdır. Valyuta ehtiyatlarımız 24 dəfə artmışdır, bu gün 44 milyard dollara bərabərdir. Ölkəmizə 230 milyard dollardan çox sərmayə qoyulub. Ölkəmizdə çox gözəl investisiya iqlimi vardır. Xarici və yerli sərmayə ölkəmizə bundan sonra da qoyulacaqdır".

Prezident İlham Əliyev ölkəmizin idman uğurlarına da toxunub: "Biz böyük idman uğurları ilə fəxr edə bilərik. Bizim idmançılarımız son 15 il ərzində Olimpiya Oyunlarında, Dünya, Avropa çempionatlarında böyük qələbələr qazanmışlar. Avropa Oyunlarında biz ikinci yerə layiq görüldük, İslam Həmrəyliyi Oyunlarında isə bütün müsəlman ölkələri arasında birinci yerə nail olduq. Biz Rio Olimpiya Oyunlarında medalların sayına görə 14-cü yerdəyik. Tarixi qələbələrdir. Hara baxsaq, hansı sahəyə baxsaq biz inkişaf, nəticə və uğur görürük. Nəyə görə? Çünki bizim siyasətimiz xalq tərəfindən dəstəklənir".

Azərbaycan Respublikasının Prezidenti çıxışının sonunda qeyd edib ki, hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar: "Bütün bu uğurlar ancaq müstəqillik dövründə mümkün olmuşdur. Azərbaycan xalqı bir daha görür ki, müstəqilliyimizin üstünlükləri nədən ibarətdir. Bizim taleyimiz öz əlimizdədir, biz öz taleyimizin sahibiyik. Biz ancaq müstəqillik dövründə belə böyük uğurlara nail ola bilərdik. Bu gün müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük nemətdir, ən böyük xoşbəxtlikdir. Biz bundan sonra da müstəqillik və qələbələr yolu ilə gedəcəyik.

Eşq olsun Azərbaycan xalqına!
Yaşasın Azərbaycan!".

Prezident İlham Əliyevin çıxışından sonra andiçmə mərasimi başa çatıb.

## "FORMULA-1 AZƏRBAYCAN QRAN PRİ" YARIŞI İLƏ ƏLAQƏDAR DAXİLİ QOŞUNLARIN ŞƏXSİ HEYƏTİNİN HAZIRLIĞI YOXLANILIB

***General-leytenant Şahin Məmmədov yarış zamanı qarşıya qoyulmuş tapşırıqların icrasına məsuliyyətlə yanaşılmasının, nəzərdə tutulmuş tədbirlərin vaxtında və tam həcmdə həyata keçirilməsinin vacibliyini vurğulayıb***





Aprelin 17-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Bakı şəhərində yerləşən "N" saylı hərbi hissəsində "Formula-1 Azərbaycan Qran Pri" yarışında xidmətin aparılmasına hazırlıq yoxlanılıb.

Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun iştirakı ilə keçirilən tədbirdə yarış zamanı digər hüquq-mühafizə orqanları ilə birlikdə ictimai qaydanın qorunmasına və ictimai təhlükəsizliyin təmin olunmasına cəlb ediləcək hərbi qulluqçuların xidmətə hazırlığı, xüsusi vasitə, avadanlıq və rabitə vasitələri ilə təchizatı, təminat məsələlərinin həlli, eləcə də nəqliyyat vasitələrinin vəziyyəti yoxlanılıb.

Daxili İşlər Nazirinin müavini – Daxili Qoşunların Komandanına məruzə edilib ki, yarış ərəfəsində xidməti-döyüş tapşırıqlarının və müəyyən edilmiş vəzifələrin tam həcmdə yerinə yetirilməsi üçün planlaşdırılmış hazırlıq tədbirlərinin vaxtlı-vaxtında icrası təmin olunur. İlk növbədə müvafiq plan-hesab hazırlanaraq şəxsi heyətin xidmət sahələri üzrə bölgüsü aparılıb, digər hüquq-mühafizə orqanları ilə qoşunların birgə fəaliyyətinin əlaqələndirilməsi, tədbirin təşkilatçıları, aidiyyəti dövlət qurumları ilə qarşılıqlı əlaqələrin təşkili məqsədilə baş idarəetmə mərkəzi yaradılıb. Yarışların təşkil olunacağı ərazi və obyektlərə baxış keçirilərək xidmətin təşkili baxımından təhlil olunub, aidiyyəti üzrə komandir heyəti xidmətaparma yerləri ilə əyani tanış edilib. Xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsinə cəlb olunan şəxsi heyətə tədbirin əhəmiyyəti, qanunçuluq, vətəndaşların hüquq və azadlıqlarının qorunması prinsipləri izah edilmiş, vəzifə borclarının icrasına məsuliyyətlə yanaşılması tələb olunmuşdur. Həmçinin, şəxsi heyətin daşınmasında nəqliyyat vasitələrinin sazlığına xüsusi diqqətin yetirilməsi və düzgün istismarının təşkilinə önəm verilməsi qeyd edilib.

Bildirilib ki, yarış zamanı xüsusi icazəsi olmayan şəxslərin buraxılmasının və avtomaşınların daxil olmasının, eyni zamanda baş verə biləcək hər hansı bir fövqəladə halın qarşısının alınması ilə əlaqədar müəyyən edilən vəzifələr peşəkarlıqla yerinə yetiriləcəkdir.

Qeyd olunub ki, hazırlıq mərhələsində həvalə edilən obyektlərin mühafizəsi, nəzarət-buraxılış məntəqələrində buraxılış rejiminin təmin olunması üzrə xüsusi məşğələlər keçirilir, xidmətə cəlb olunacaq qadın hərbi qulluqçuların da müvafiq məşğələlərdə iştirakı təmin edilib.

Sonra xüsusi təyinatlı bölmələrin, perimetr boyu xidmətin aparılmasına cəlb olunacaq şəxsi heyətin, o cümlədən qadın hərbi qulluqçuların xüsusi geyim formalarına və hərtərəfli təminatına, xüsusi vasitə və avadanlıqlarla, rabitə vasitələrilə təchizatına, nəqliyyat vasitələrinə baxış keçirilib.

Şəxsi heyətin hazırlığını yüksək qiymətləndirən general-leytenant Ş.Məmmədov "Formula-1 Azərbaycan Qran Pri" yarışı ilə bağlı qarşıya qoyulan tapşırıqların icrasına məsuliyyətlə yanaşılmasının, nəzərdə tutulmuş tədbirlərin vaxtında və tam həcmdə həyata keçirilməsinin vacibliyini vurğulayıb.

Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı xidmətin aparılması ilə əlaqədar konkret tapşırıqlarını verərək, şəxsi heyətə bu məsuliyyətli işdə uğurlar arzulayıb, qarşıya qoyulmuş tapşırıqların yüksək səviyyədə yerinə yetiriləcəyinə əminliyini bildirib.

Xüsusi olaraq diqqətə çatdırıb ki, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları mötəbər idman yarışı ilə əlaqədar etimadı doğruldaraq nümunəvi nizam-intizamı, üzərinə düşən vəzifələri peşəkarcasına yerinə yetirməsi ilə dövlətçiliyə və andına sadiq olmasını bir daha nümayiş etdirəcəkdir.

**Mətbuat xidməti**

2_Layout 1 26.04.2018 18:20 Page 1



## ALİ HƏRBİ MƏKTƏBİN YARADILMASININ İLDÖNÜMÜ QEYD OLUNUB

***Aprelin 17-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin yaradılmasının 12-ci ildönümü münasibətilə təntənəli mərasim keçirilib.***



Tədbir Milli Lider Heydər Əliyevin və respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçularımızın əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb, Dövlət Himni ifa olunub.

Sonra təbrik üçün söz Ali Hərbi Məktəbin rəisi general-mayor İlqar Məmmədova verilib.

O, şəxsi heyəti Ali Hərbi Məktəbin yaradılmasının növbəti ildönümü münasibətilə təbrik edərək, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının müstəqil struktur hissəsi kimi yaranması, formalaşması barədə məlumat verib. Ali Hərbi Məktəbin 2011-ci ildə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə qoşunların Orta İxtisas Hərbi Məktəbinin bazasında yaradıldığını deyən məktəb rəisi qarşıda duran vəzifələrdən də danışıb. O, əsas vəzifə və tapşırıqların yüksək keyfiyyətlə yerinə yetirilməsini təmin etmək üçün şəxsi heyətin hərbi intizamının yüksəldilməsinə, hərbi biliklərini artırmasına daim çalışmalı, müvafiq tədris proqramını tam mənimsəməli olduğunu vurğulayıb.

Ali Hərbi Məktəbin rəisi çıxışının sonunda Daxili Qoşunlar Komandanının əmin edib ki, şəxsi heyət üzərinə düşən tapşırıqların icrasına bundan sonra da məsuliyyətlə yanaşacaq, hərbi xidmət borcunu vicdanla yerinə yetirəcək.

Sonra Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun şəxsi heyətə ünvanladığı təbrik məktubu çatdırılıb.

Təbrikdə bu gün güclü maddi-texniki bazaya malik olan Daxili Qoşunların kadr potensialının möhkəmləndirilməsinə xüsusi diqqət göstərildiyi, müasir dövrün tələblərinə cavab verən, yüksək ixtisaslı peşəkarların hazırlanmasını həyata keçirən Ali Hərbi Məktəbdə kursantların seçdikləri peşəyə dərindən yiyələnməsi üçün bütün lazımi imkanların olduğu qeyd edilib. Daxili Qoşunlarda ordu quruculuğu işinin həyata keçirilməsində, təlim-tədrisin və təchizat məsələlərinin həllində Türkiyənin Jandarm Qüvvələri Baş Komandanlığının yardımlarının əvəzsiz olduğu vurğulanan təbrikdə dövlət və dövlətçiliyimizə sadiq olan kursantlarımızın üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəklərinə, vətənpərvərlik, şəxsi cəsarət, dönməzlik və saf mənəviyyat nümayiş etdirəcəklərinə əminlik ifadə olunub.

Tədbir şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

**leytenant N.Ağayeva**

## NARKOMANİYA ƏLEYHİNƏ NÖVBƏTİ MAARİFLƏNDİRİCİ TƏDBİR KEÇİRİLİB

***Aprelin 20-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Baş İdarəsində “Narkomaniya əleyhinə mübarizə” mövzusunda növbəti maarifləndirici tədbir keçirilib. Tədbirdə Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Respublika Narkoloji Mərkəzinin nümayəndəsi kimi Mərkəzin şöbə müdiri həkim-narkoloq Pərvin Məmmədov iştirak edib.***





Şəxsi heyətə narkomaniyanın hazırda cəmiyyətimizin bir nömrəli bəlasına çevrildiyini deyən, onun insan orqanizmində yaratdığı fəsadlar barədə məlumat verən P.Məmmədov narkotik vasitələr, onların insan orqanizminə, cəmiyyətə vurduğu ziyan və ilkin aşkarlanma əlamətləri barəsində danışıb. O, təmsil etdiyi mərkəz tərəfindən cavan nəslin bu bəlaya tutulmaması üçün daim profilaktik tədbirlərin həyata keçirildiyini bildirib. İnsanlar narkotik vasitələr haqqında nə qədər çox bilgiyə malik olsalar, bu bəladan qorunmağın bir o qədər asan olduğunu söyləyən P.Məmmədov respublika üzrə narkotik vasitələrdən istifadə edənlərin ümumi sayının 30131 nəfər olduğunu, onlardan dispanser qeydiyyatında 25139 nəfər, profilaktik qeydiyyatında olanlar 4992 nəfər, anonimlərin sayının isə 1031 nəfər təşkil etdiyini nəzərə çatdırıb. Qadınlar arasında narkotika aludəçilərinin 595 nəfərindən 450 nəfəri dispanser qeydiyyatında, 145 nəfəri isə profilaktik qeydiyyatdadır. Narkomaniya ilə mübarizədə ailədə, hər bir əmək kollektivində, habelə təhsil müəssisələrində maarifləndirmə işinin aparılmasının vacibliyini deyən məruzəçi vurğulayıb ki, narkomaniyanın yayılması millətin sağlam həyat tərzi üçün təhlükə törədir: “Narkotikanın qəbulu ilə insan fiziki və psixoloji cəhətdən məhv olur, yaddaş və təfəkkürü pozulur, həyata qarşı laqeydlik yaranır, sosial münasibətlərə mənfi təsir göstərir. Son zamanlar məhz gənc nəslin bu bəlaya tutulması təəssüfləndirici hadisə kimi qiymətləndirilməlidir. Ona görə də bu sahədə maarifləndirmə işinin daha çox gənc nəslin arasında aparılması daha effektiv nəticə verər”.

Tədbir müzakirələr və yaranan sualların cavablandırılması ilə yekunlaşıb.

Qeyd edək ki, aprel ayının ikinci yarısında analoji tədbirlər Daxili Qoşunların Ali Hərbi Məktəbi və hərbi hissələrində də davam etdirilib.

**leytenant N.Ağayeva**

## BÖLÜYÜN ŞƏXSİ HEYƏTİ AYIQ-SAYIQ XİDMƏT APARIR

***Bu gün DİN-in Daxili Qoşunları paytaxt Bakıda və regionlarda digər hüquq-mühafizə qurumları ilə yanaşı ictimai qaydanın, eləcə də ictimai təhlükəsizliyin təmin olunmasını müvəffəqiyyətlə həyata keçirir. Yerlərdə qarşıya qoyulmuş tapşırıqları uğurla icra edən hərbi hissələrdən biri də 16077 saylı hərbi hissədir.***





Hərbi hissənin yüksək döyüş hazırlığının ilk göstəricisi onun mühafizə və müdafiəsindən başlayır. Hərbi şəhərciyin mühafizəsini həyata keçirən komendant bölüyünün komandiri kapitan Hakim Hüseynov döyüş xidmətinə cəlb olunan şəxsi heyətlə aparılan iş metodikasından danışdı. O, xidmətə cəlb olunan hərbi qulluqçuların fiziki və atəş hazırlığının yüksək olması ilə yanaşı, həm də hər birinin sağlam səhhətə, sağlam düşüncəyə malik olmasının vacibliyini vurğuladı. Bu baxımdan, bölük komandiri şəxsi heyətlə keçirilən nəzəri, o cümlədən praktiki məşğələlərin əhəmiyyətini önə çəkdi. Bildirdi ki, ümumiyyətlə, keçirilən bütün növ məşğələlərə bölük komandirinin müavini baş leytenant Sarvan Həmidov nəzarət edir. Məşğələlər zamanı şəxsi heyətə xidmətin düzgün təşkili qaydaları, habelə postlarda olarkən ayıq-sayıq, cəsarətli, çevik, qətiyyətli olmaları izah edilir. Bundan başqa, təlimat məşğələlərində silahla davranma zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunması bir daha xatırladılır.

Komendant bölüyü komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Eyvaz Zərbəliyev isə şəxsi heyətin mənəvi-psixoloji durumunun daima yüksək səviyyədə olmasını diqqət mərkəzində saxlayır. O, xidmətə cəlb olunan təbliğatçılarla saat 12:00-dan 12:15-ə kimi təlimat məşğələsi keçir. Bu zaman, qarovulda hərbi qulluqçular arasında qarşılıqlı münasibət, davranış qaydaları, hər hansı bir hərbi qulluqçunun mənəvi-psixoloji vəziyyəti zəif olarsa, bu barədə dərhal qarovul rəisinə məlumat vermələri tələb olunur.

Bölük komandiri xidmətin təşkilində qarovul rəisləri baş leytenant Qulu Quluyevin, baş leytenant Rəyasət Əliyevin, baş leytenant Kamran Ağayevin əməyini də xüsusi olaraq qeyd etdi. Qarovul rəisi kimi baş leytenant K.Ağayev xidmətin düzgün təşkili, postlarda saatdarın ayıq-sayıq olmasını, növbələrin vaxtlı-vaxtında dəyişilməsini, eyni zamanda şəxsi heyətin qidalanmasını və istirahətini daima ciddi nəzarətdə saxlayır.

Kapitan H.Hüseynov funksional vəzifələrini layiqincə yerinə yetirən qarovul rəisinin köməkçisi kiçik çavuş Orxan Qəzənfərzadənin, qarovul nəfərlərindən baş əsgərlər Şahin İsazadənin, Heybətqulu Novruzovun, Sadiq Eyvazovun, əsgərlər Kamran Nuriyevin, Müslümağa İsayevin və Vasif Məmmədovun adlarını çəkdi.

**kapitan T.Əlizadə**

## TƏLİMLƏR PEŞƏ VƏRDİŞLƏRİNİN ARTMASINA BÖYÜK TƏKAN VERİR

“Daxili Qoşunların Statusu haqqında” Azərbaycan Respublikasının Qanununda Daxili Qoşunlara həvalə olunan vəzifələrdən biri də zərurət olduqda Azərbaycan Respublikasının ərazisinin müdafiəsində iştirak etməkdir. Bu





baxımdan, 16077 saylı hərbi hissə daimi yüksək döyüş hazırlığını qoruyub saxlamaqdadır.

Hərbi hissənin əsas tədbirlər və döyüş təliminin təşkilinə dair təqvim planına əsasən hər ay üç gün olmaqla hissənin motoatıcı taboru və kəşfiyyat bölüyü ilə “Goran” təlim mərkəzində səhra çıxışı, eyni zamanda atıcılıq məşqləri keçirilir.

“Bölük müdafiədə” döyüş-atışlı taktiki təlimlərdə bölmələrin döyüşlərə maksimal yaxınlaşmış şəraitdə çöl vərdişi və uzlaşması təkmilləşdirilir, düzgün taktiki hərəkətlərə, döyüşdə silahın bacarıqlı, eləcə də effektiv tətbiqi, bölmələrin atəşinin idarə edilməsi, habelə təhlükəsizlik tədbirlərinə ciddi riayət olunması öyrədilir. Təlimlərə hərbi hissə komandirinin döyüş hazırlığı üzrə müavini polkovnik-leytenant Tural Abdulkərimov rəhbərlik edir.

Təlimlər üç mərhələdə keçirilir. İlk olaraq bölmələr təlim “həyəcan” siqnalı ilə qaldırılır, yürüş əmri verilir. İkinci mərhələdə şəxsi heyət səhra şəraitində yerləşdirilir, maddi-texniki təminat xidmətləri üzrə tədbirlər həyata keçirilir. Ardınca səhra vərdişlərinin təkmilləşdirilməsi məqsədilə, taktika, atəş, mühəndis hazırlığı, hərbi topoqrafiya və digər fənlər üzrə məşğələlər keçirilir. Sonuncu, üçüncü mərhələdə isə hərbi qulluqçular onlara təhkim olunmuş silahlardan normativlər verir, eyni zamanda zirehli texnikanın üzərinə quraşdırılmış iriçaplı silahlardan praktiki atəş açır, döyüş vəhdətinin hazırlığı yoxlanılır. Bütün bu məşğələlər hərbi qulluqçuların hərbi biliklərini, metodiki bacarıqlarını təkmilləşdirir, peşə vərdişlərinin artmasına böyük təkan verir.

Şəxsi heyət də məşğələ və təlimlərdə fəallıq nümayiş etdirərək, qarşıya qoyulmuş tapşırıqları müvəffəqiyyətlə icra edir.

**kapitan T.Əlizadə**

## “ÜZƏRİMİZƏ DÜŞƏN VƏZİFƏLƏRİ LAYİQİNCƏ YERİNƏ YETİRMƏYƏ ÇALIŞIRIQ”

***67987 saylı hərbi hissənin Kimya xidməti nümunəviliyi ilə qərargahın digər xidmətlərindən fərqlənir. Hazırda Kimya xidməti rəisinin vəzifələrini icra edən kapitan Polad Şirinov hissə komandanlığı tərəfindən qarşıya qoyulmuş tapşırıqları uğurla yerinə yetirir.***



O, 1985-ci il avqustun 1-də Sumqayıt şəhərində dünyaya gəlib. Sumqayıt şəhər M.Müşfiq adına 34 saylı tam orta məktəbi 2003-cü ildə bitirib. Elə həmin ildə Daxili Qoşunların 17072 saylı hərbi hissəsinə müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi qəbul olunub. Xidmətini ləyaqətlə başa vuran əsgərimizin Daxili Qoşunlarda əsl hərbçi kimi yetişməsi heç də təsadüfi deyil. O, hələ yeniyetməlik çağlarından öz gələcəyini hərbçi peşəsində görürdü. Məhz bu arzuyla da, 2005-ci ildə Daxili Qoşunların 25031 saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində atıcı kimi müddətdən artıq həqiqi hərbi xidmətə başlayır. Peşəkarlıq vərdişlərini artıraraq, zabit olmaq üçün 2006-cı ildə Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbinə qəbul olunur və 2008-ci ildə həmin məktəbi bitirərək, ilkin zabit hərbi rütbəsinə yiyələnir.

Funksional vəzifələrinin icrasına məsuliyyətlə yanaşan kapitan P.Şirinov hərbi hissənin kimya xidməti üzrə rəhbəredici sənədlərin tələblərinə əsasən qurduğunu bildirdi. Hərbi hissənin əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planının işlənib hazırlanmasında iştirak edərək, rəhbərlik etdiyi sahə üzrə onların yerinə yetirilməsinə xüsusi fikir verir.

Kimya-silahlanma vasitələrindən təyinatı üzrə istifadə edilməsini, onların qorunub saxlanılmasını, bölmələrə verilməsini, uçotunu, bu vasitələrin vəziyyətini, anbar və bölmələrdə saxlanılmasının yoxlanmasını təmin edir, kütləvi qırğın silahlarından mühafizəsinin təşkilinə önəm verir. Tabeliyində olan şəxsi heyətin öz ixtisası üzrə hazırlığına, tərbiyəsinə, hərbi intizamına nəzarət edir. Kuratoru olduğu bölmələrdə keçirilən məşğələlərə, tərbiyə saatlarına praktiki olaraq köməklik göstərir. Həmçinin TOMA kütləvi iğtişaşlara müdaxilə avtomobillərində təmir işlərinin və texniki qulluq tədbirlərinin keçirilməsinə nəzarət edir, bu texnikadan texniki cəhətdən düzgün istifadə olunması üçün lazımi tədbirləri keçirdir. Hərbi hissənin kimya anbarında saxlanılan əmlakların yanğından mühafizəsi tədbirlərinə nəzarət etmək də onun funksional vəzifələrindəndir.

Əməliyyat-döyüş tapşırıqlarını yerinə yetirərkən xüsusi vasitələrin düzgün tətbiq edilməsinə də prioritet məsələ kimi diqqət yetirir. Ölkəmizdə keçirilən beynəlxalq əhəmiyyətli yarışmalarda hərbi hissənin mühəndis xidmətilə birlikdə müəyyən edilmiş vəzifələrin icrasında kimya xidmətinin fəallığı göstərdiyini sözlərinə əlavə edən kapitan P.Şirinov Daxili Qoşunların zabiti olduğu üçün fəxr etdiyini söyləyir, daim bu adı uca tutmağa çalışacağına və rəhbərlik tərəfindən ona göstərilən etimadı hər zaman doğruldacağına söz verdi.

**leytenant N.Ağayeva**

## Döyüş xidmətində fərqlənən əsgər



25032 saylı hərbi hissənin komendant bölüyündə baş atıcı əsgər Hüsü Bağırov nümunəvi xidməti ilə fərqlənir. O, 1998-ci ilin noyabr ayının 29-da Ağdam rayonunun Əfətli kəndində anadan olub. Orta təhsillidir. 2017-ci ilin aprel ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ağdam Rayon Şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Həmin vaxtdan Daxili Qoşunların sıralarındadır.

Hüsünün böyüyüb, boya-başa çatdığı Ağdam rayonunun bir hissəsi işğal altındadır. Hələ uşaqlıq illərindən düşmənə nifrət, şəhidlərimizin xatirəsinə ehtiram, doğma torpağa məhəbbət hissilə vətənpərvərlik əqidəsi formalaşan Hüsü bu gün hərbi xidmətdə əzmkarlıq göstərərək, üzərinə düşən tapşırıqları layiqincə yerinə yetirir. Belə ki, komendant bölüyünün hərbi qulluqçusu olaraq, döyüş xidmətinin məsuliyyətini düzgün dərk edir.

Qarovul xidmətinə cəlb olunarkən qoruduğu postlarda ayıq-sayıqlığı ilə seçilir, istənilən vəziyyətdə qarşıya qoyula biləcək döyüş tapşırığının icrasına hazırdır. Əsgər H.Bağırov təlimdə də çalışqandır və müsbət göstəricilərə nail olur. Hərbi yoldaşlıq münasibətlərinin qorunmasına ciddi yanaşır, nizam-intizamı ilə əsgər yoldaşlarına örnəkdir.

Hüsü Daxili Qoşunların şərəfli döyüş yolu barədə məlumatlarla daim maraqlanır və qəhrəman hərbi qulluqçularımızın şücaət nümunələri onu bir əsgər kimi ruhlandırır. Ona layiqli hərbi xidmətində yeni uğurlar arzulayırıq.

**25032 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

3_Layout 1 26.04.2018 18:19 Page 1



ŞƏHİDLƏRİMİZ

# SIRXAVƏNDƏ GEDƏN YOLLAR QANLI-QADALI...

Qarabağ müharibəsində erməni işğalçılarına qarşı ağır döyüşlərin getdiyi istiqamətlərdən biri də Ağdam-Ağdərə ön cəbhə zonası idi. Bu ərazidə döyüş əməliyyatlarına cəlb olunan Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti sırasından yüzlərlə hərbi qulluqçu şəhid olub və xəbərsiz itkin düşüb. Onların bir qisminin döyüş yolu bu günədək mətbuat səhifələrində və ya kitab nəşrlərində işıqlandırılmayıb. Ona görə də bu boşluğu aradan qaldırmağı tarixi yaddaş baxımından vacib hesab edirik. O dövrdən uzun illər keçməsinə baxmayaraq, bu mövzu üzrə tədqiqatların davam etdirilməsi yeni faktlar, maraqlı məqamlar üzə çıxarır.

Daxili Qoşunların şəhid və itkin hərbi qulluqçularının siyahısında əsgər Qəribov Yadigar Xasməmməd oğlunun da adı var. O, 1972-ci il dekabrın 2-də Ermənistan Respublikasının Vardenis rayonunun (qədim yurdumuz Basarkeçər) Şişqaya kəndində dünyaya göz açıb. Qəribovlar ailəsində üç oğul və iki qız övladı anadan olub. Xasməmməd Qəribov və Nina Qəribovanın qurduğu bu beynəlmiləl ailədə milli ruh və adət-ənənələrin qorunub saxlanmasına laqeyd yanaşılmayıb. Həmçinin, ailədə böyüyən övladlara, o cümlədən Yadigara Vətən təəssübkeşliyi aqidəsi aşılanıb. Ailə 1978-ci ildə Ermənistandan respublikamıza köçüb. Paytaxtımızda məskunlaşaraq burada özlərinə yeni düzən və güzəran qurublar. Yadigar Bakının Suraxanı rayonunun Hövsan qəsəbəsindəki 118 saylı orta məktəbdə 8 il oxuyub. Sonra isə məktəbdən çıxaraq, ailəsinin dolanışığına öz zəhməti ilə köməklik göstərib.

Y.Qəribov 18 iyul 1992-ci ildən Suraxanı Rayon Hərbi Komissarlığı (hazırda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Suraxanı Rayon İdarəsi) tərəfindən Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sıralarına həqiqi hərbi xidmətə çağırılıb.



QƏRİBOV YADİGAR XASMƏMMƏD OĞLU

Beləliklə, Daxili Qoşunların 5477 saylı hərbi hissəsində (hazırda 17072 saylı hərbi hissə) müddətli həqiqi hərbi xidmətə başlayıb. Yadigar burada hərbi andı qəbul edib, əsgər üçün zəruri olan hərbi biliklərə yiyələnib, döyüşçü kimi hazırlanıb. Həmin vaxt 5477 saylı hərbi hissənin şəxsi heyəti artıq bir neçə ay idi ki, ön cəbhədə döyüş tapşırıqlarının yerinə yetirilməsinə cəlb olunurdu. Hərbi hissədən həmçinin döyüş bölgəsinə göndərilən hərbi dəstələrdən birinin tərkibində əsgər Y.Qəribov Ağdam-Ağdərə istiqamətləri üzrə düşmənlə təmas xəttindəki mövqelərdə torpaqlarımızın müdafiəsində dayanıb. O, bu bölgədə bir sıra yaşayış məntəqələrinin və yüksəkliklərin düşmən tapdağından azad olunması uğrunda cəsarətlə vuruşub. Yadigar müharibənin bütün məhrumiyyətlərinə bir əsgər olaraq dözüb, döyüşçü yoldaşlarının həlak olması və yaralanması onu da dərindən sarsıdıb. Yadigar döyüşlərdə düşmən üzərinə nifrət hissi və qətiyyətlə atılıb.

1992-ci il sentyabrın 29-da əsgər Y.Qəribov Sırxavənd kəndi (13.10.1992-ci ilədək Ağdərə rayonunun tərkibində olub. Həmin tarixdən isə Ağdam rayonunun inzibati ərazisinə daxil edilib.) ətrafında gedən döyüş zamanı xəbərsiz itkin düşüb. İstər döyüşlər getdiyi dövrdə, istərsə də sonra onun taleyi barədə heç bir məlumat olmayıb.

Azərbaycan Respublikası Suraxanı Xalq Məhkəməsinin (hazırda Suraxanı Rayon Məhkəməsi) 14 noyabr 1995-ci il tarixli müvafiq qərarı ilə əsgər Qəribov Yadigar Xasməmməd oğlu 29.09.1992-ci il tarixdə müharibədə ölmüş elan edilib.

Qəribovlar ailəsinə verilmiş 05.12.1995-ci il tarixli ölüm haqqında şəhadətnamədə də əsgər Y.Qəribovun 29.09.1992-ci il tarixdə Ağdərənin Sırxavənd kəndi ətrafında döyüşdə həlak olduğu yazılıb.

Daxili Qoşunların Baş İdarəsindən Qəribovlar ailəsinə göndərilən 22 may 1995-ci il tarixli məktubda əsgər Y.Qəribovun 5477 saylı hərbi hissənin tərkibində 29 sentyabr 1992-ci il tarixdə Sırxavənddə gedən döyüşdə iştirak etdiyi zaman xəbərsiz itkin düşdüyü qeyd olunub.

Bənövşə Eyyubovanın müəllifi olduğu "Qızıl qan" kitabında (1997-ci ildə "Elm" nəşriyyatında çap olunub) Y.Qəribov barədə qısa yazı verilib. Kitabda Yadigarın 20.09.1992-ci il tarixdə Sırxavənddə itkin düşdüyü göstərilib. Görünür, müəllif rəsmi sənədlərə istinad etməyib.

Yadigarın xatirəsi ailəsi, bütün onu tanıyanlar tərəfindən həmişə anılır. Valideynləri Xasməmməd Qəribov və Nina Qəribova vəfat etdikləri günədək onun yoxluğu ağrı-acısı ilə yaşayıblar. Nina xanımın məzarının baş daşında Yadigarın da şəkli həkk olunub. Yadigarın qardaşı Vaqif də müharibə iştirakçısıdır, ön cəbhədə olarkən qardaşını axtarıb, ancaq bu cəhdləri nəticəsiz qalıb. Vaqifin oğlu Yadigarın adını daşıyır. Mariya Babayeva, Volodya Qəribov, Vaqif Qəribov və Kəmalə Qəribova qardaşları Yadigarın döyüş yolu keçdiyi ərazilərin düşmən tapdağından azad olunmasını, şəhidlərimizin qisasının alınmasını arzulayırlar. Tanrı bizi bu arzulara qovuşdursun!

**Yalçın Abbasov**

# FUNKSİONAL VƏZİFƏLƏRİNƏ MƏSULİYYƏTLƏ YANAŞIR, ÜZƏRİNƏ GÖTÜRDÜYÜ HƏRBİ ÖHDƏLİKLƏRİ VAXTLI-VAXTINDA YERİNƏ YETİRİR

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının xidməti-döyüş fəaliyyətində mühüm sahələrdən biri də məxfi və qeyri-məxfi kargüzarlığın işinin təşkili və aparılmasıdır. Daxili Qoşunların Baş İdarəsində, eləcə də yerlərdə yerləşən hərbi hissələrdə dövlət sirrinin mühafizəsinin təmini və məxfi sənədlərlə işin təşkilini məxfi kargüzarlıq həyata keçirir. 16075 saylı hərbi hissənin məxfi hissəsi də üzərinə düşən bu və ya digər vəzifələrin öhdəsindən layiqincə gəlir.

Məxfi hissənin rəisi gizir Günay Quliyeva müəyyən edilmiş qaydalara uyğun olaraq məxfi sənədlərlə işin aparılmasına, həmin sənədlərin vaxtında qaytarılmasına, bütün hərbi qulluqçuların məxfi sənədlərlə düzgün davranış qaydalarına dəqiq riayət etməsinə cavabdehdir. Sənədlərin, işlərin, xüsusi vəsaitlərin vaxtında məxfiləşdirilməsi, icraçılar tərəfindən məxfilik dərəcəsinin düzgün müəyyən olunması, habelə möhürlərin, ştampların qeydiyyatı, onlardan düzgün istifadə edilməsi də onun vəzifələrindəndir.



O, hər səhər yerbəyer mərasimindən sonra işçi qovluqları və sənədləri icraçılara verir. Digər sənədləri qeydiyyata salaraq, zərfləşdirir və aidiyyəti üzrə ünvanlara göndərir. Saat 11:00-dan 13:00-a kimi sənədləri hərbi hissə komandanlığına məruzəsi üçün hazırlayır. Ardınca icra olunmuş sənədləri qəbul edir. Nahar fasiləsindən sonra sənədləri komandanlığa məruzə edir və icraçılara çatdırır. Günün sonuna yaxın sənədləri işə tikir, uçot jurnallarında müvafiq qeydiyyatlar aparır, zərurət olduqda isə saxlama müddəti bitmiş jurnalların, kitabların, nəşr və məxfi iş dəftərlərinin məhv edilməsi üçün akt hazırlayır. İcraçılardan sənədləri yoxlayıb qəbul edir və işə yekun vurur.

Bir sözlə, gizir G.Quliyeva funksional vəzifələrinə məsuliyyətlə yanaşır, üzərinə götürdüyü hərbi öhdəlikləri uğurla icra edir.

**kapitan T.Əlizadə**

# HƏRBİ XƏBƏRLƏR ·YENİLİKLƏR·

### Rusiya HDQ-yə "Kalibr" qanadlı raketləri çatdırılıb

Rusiya Hərbi Dəniz Qüvvələrinə bu ilin ilk üç ayı ərzində 50-yə yaxın "Kalibr" qanadlı raketi təhvil verilib.



TASS-ın verdiyi xəbərə görə, bu barədə Rusiya müdafiə nazirinin müavini Yuri Borisov bildirib.

Onun sözlərinə görə, "Kalibr"lərdən əlavə, donanma eyni zaman kəsimində bir ədəd nüvə imkanlı sualtı gəmi, üç ədəd döyüş gəmisi və iki helikopter də əldə edib.

### ABŞ HDQ silahlanmaya yeni katerlər qəbul edəcək

ABŞ-ın "Textron Marine and Land Systems" şirkəti Hərbi Dəniz Qüvvələri üçün "Ship to Shore Connector" tipli katerlərin sınaqdan keçirilməsinə başlayıb.

ABŞ HDQ-nin Hərbi Dəniz İnstitutunun saytında yerləşdirilmiş məlumata görə, yeni LCAC 100 desant gəmiləri xarici görünüşünə görə əvvəlki gəmilərdən çox da fərqlənmirlər. Buna baxmayaraq, yeni katerdə əhəmiyyətli dəyişikliklər də var. Məsələn, gəmidə yeni olan hava döşəkçələrini fərqləndirmək olar.



LCAC 100 gəmiləri 4 yerinə 2 mühərriklə təchiz olunacaq. Buna baxmayaraq, gəminin sürət və yük qaldırma bacarığı artıb. O cümlədən ekipaj üzvlərinin sayı da 5-dən 4-ə endirilib. Gəmidə avtomatlaşdırmanın effektivliyi isə artırılıb.

**"ORDU.AZ" hərbi xəbər saytı**

# XİDMƏTİ İTLƏRİ YETİŞDİRMƏ MƏNTƏQƏSİ MÜƏYYƏN OLUNMUŞ VƏZİFƏLƏRİ UĞURLA İCRA EDİR

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti polis əməkdaşları ilə birgə müxtəlif illərdə ölkəmizdə keçirilən beynəlxalq əhəmiyyətli tədbirlərdə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə müəyyən edilmiş tapşırıqları uğurla yerinə yetirib. Sözügedən tədbirlərdə xidmətin aparılmasında Daxili Qoşunların Xidməti itləri yetişdirmə məntəqəsinin fəaliyyəti də təqdirəlayiqdir.

Bu günlərdə qəzetimizin növbəti sayı üçün yeni materiallar hazırlamaq məqsədilə 67987 saylı hərbi hissədə xidməti ezamiyyətdə olarkən, XİYM-in fəaliyyətini işıqlandırmaq qərarına gəldim.

67987 saylı hərbi hissənin ərazisində yerləşən Xidməti itləri yetişdirmə məntəqəsinin rəisi-müəllim kapitan Pərviz Əliyevlə xidmətin təşkili barədə söhbət etdik. Söhbət zamanı xidmətin spesifikliyini nəzərimizə çatdıran kapitan P.Əliyev öz xidmətində Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunlar Komandanının əmr və göstərişlərini rəhbər tutduğunu dedi. İctimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması, cinayətkarların axtarışı və tutulması, narkotik maddələrin aşkar edilməsi, atılmış güllə gilizlərinin, meyitlərin, həmçinin kustar üsulla hazırlanmış partlayıcı qurğuların aşkar edilməsi, ümumiyyətlə, maddi sübut hesab edilə bilən əşyaların tapılması üzrə keçirilən tədbirlərdə xidməti itlərdən istifadə olunur. Xidməti itləri yetişdirmə məntəqəsi əməliyyatlar zamanı itlərdən istifadə olunması işinin qabaqcıl təcrübə və metodlarını öyrənir, qoşunlarda tətbiq edir. Təsdiq olunmuş proqrama əsasən, peşəkar təlimatçıların hazırlanması işini təşkil edir və bu istiqamətdə hərbi hissələrə köməklik göstərir.

Nümunəvi zabit kimi xarakterizə olunan kapitan P.Əliyev xidməti itlərin saxlanılmasına, qorunmasına, təliminə, baytarlıq xidmətinin göstərilməsinə, heyvan təlimçilərinin hazırlanmasına nəzarət edir. Əsasən məntəqədə alman çoban iti cinsinə məxsus olan xidməti itlər saxlanılır və istifadə olunur. Məntəqədə olan xidməti itlər əsasən üç istiqamətdə - partlayıcı maddələrin, silah-sursatın axtarışı və yerinin müəyyən edilməsi, qarovul və mühafizə xidməti üzrə hazırlanır.

Alman çoban itindən başqa, Türkiyə Cümhuriyyəti Jandarm Baş Komandanlığı tərəfindən Daxili Qoşunlara hədiyyə edilmiş iki ədəd "Beloçka Mainua" cinsinə mənsub xidməti it var ki, onlar da partlayıcı maddələrin axtarılması üzrə hazırlanıb, istifadə olunur. Eyni zamanda məntəqədə damazlıq itlər saxlanılır ki, onlardan nəsil artımında da istifadə olunur. Cins itlərə qulluq "Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında xidməti itlərin yetişdirilməsi və xidmətdə tətbiq edilməsi qaydaları haqqında təlimatın" tələblərinə əsasən həyata keçirilir. İtlərə qulluq gündə iki dəfə yemləmə, iki dəfə darama və təmizləmə işləri aparılmaqla təşkil olunur.

Məntəqənin baytar həkimi baş leytenant Xatai Şirinov tərəfindən baytar profilaktiki tədbirlər təşkil olunur (vaksinasiya, dehelmintizasiya). İtlərin iş qabiliyyəti sağlamlıqla birbaşa bağlı olduğuna görə onlara gündəlik baxışlar keçirilir, müalicə işləri aparılır. Heyvanların yemlənməsində yulaf, buğda yarması, 2-ci kateqoriya ət və ya at əti, 2-ci kateqoriyalı əlavə ət məhsulları, heyvan piyi, süd, kartof, tərəvəz, duzdan istifadə olunur.

Beynəlxalq əhəmiyyətli tədbirlərdə xidməti itlərin əməyindən geniş istifadə olunduğunu deyən kapitan P.Əliyev aprel









ayının 27-29-u tarixlərində paytaxtımızda keçirilən "Formula-1 Azərbaycan Qran Pri" yarışlarında obyektlərin təhlükəsizliyinin təmin olunması üçün 16 baş xidməti itdən istifadə edildiyini vurğuladı. Şəxsi heyət arasında xidmətlə fərqlənən heyvan təlimçilərindən baş əsgər Nicat Əhmədov və əsgər Tacəddin Şahmarlının adlarını çəkərək, onların qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gəldiyini, öz təcrübələrini yeni gəlmiş heyvan təlimçiləri (kinoloqlar) ilə bölüşdüklərini sözlərinə əlavə etdi.

**leytenant N.Ağayeva**

# NÜMUNƏVİ SAATDAR

***25031 saylı hərbi hissənin komendant bölüyündə müddətli həqiqi hərbi xidmətdə olan əsgər Hadı Babayev 1998-ci ildə Qəbələ rayonunun Mıxlıqovaq kəndində dünyaya gəlib. Orta təhsilini doğma kənd məktəbində alan Hadı 2017-ci ildə həmin məktəbi bitirib.***

Uşaqlıq illərindən idmana olan dərin marağı onu idmanın qol güləşi növü üzrə məşğul olmağa sövq edir. Mütəmadi olaraq öz üzərində işləməsi 2016-cı ildə İsmayıllı rayonunda qol güləşi üzrə keçirilən Respublika çempionatında ona II yeri qazandırır.

2017-ci ildən Daxili Qoşunların 25031 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdədir. Komendant bölüyündə xidmətin çətin, lakin şərəfli olduğunu bildirən hərbi qulluqçu vəzifə borclarının icrasına məsuliyyətlə yanaşır. Hərbi xidmət borcunu vicdanla yerinə yetirir. Komandiri baş leytenant Zeynal Cəfərovun dediyinə görə, xidmət ərzində bir dəfə də olsun nöqsana yol verməyib. Saatdar kimi xidmətə cəlb olunduğu müddətdə xüsusi sayıqlıq nümayiş etdirir. Atəş hazırlığı çalışmalarında göstərdiyi fəallığa, səratlılığa görə hərbi hissə komandirinin I müavini - qərargah rəisi tərəfindən mükafatlandırılıb.



Nümunəviliyi və intizamı ilə fərqlənməkdən əlavə, həm də əsgər yoldaşları arasında özünə hörmət qazanan əsgər H.Babayev xidmətə yeni qəbul edilən əsgərlərin uyğunlaşmasına köməklik göstərir.

Təhkim olunmuş fərdi silahının taktiki-texniki xüsusiyyətlərini dərindən mənimsəyən hərbi qulluqçu gələcək həyatını hərbi xidmətlə bağlamaq istəyir. O, Daxili Qoşunlarda müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini davam etmək fikrindədir. Vətənə olan borcunu iftixar hissilə, həvəslə yerinə yetirən əsgərimiz bu günü səbirsizliklə gözlədiyini dedi: "Düşünürəm ki, hər bir Azərbaycan oğlu hərbi xidmətə həvəslə, məsuliyyətlə yanaşmalı, komandirlərin tapşırıqlarını vaxtında və düzgün yerinə yetirməlidir. Torpaqlarımızın düşmən tapdağı altında olduğu bir vaxtda hər birimiz hərbi biliklərə dərindən yiyələnməli, silahla düzgün davranmağın sirlərini bilməliyik. Sözsüz ki, güclü orduya malik hər bir dövlət ərazi bütövlüyünü təmin etməyi bacarır. Bu Vətənin müdafiəçisi bizlərik və hər qarış torpağımız uğrunda vuruşmağa hazır olmalıyıq".

**leytenant N.Ağayeva**

4_Layout 1 27.04.2018 11:52 Page 1



*AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ - 100*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ ORDU QURUCULUĞU

***(əvvəli ötən sayımızda)***

Hərbi Nazirliyin bərpa edilməsindən sonra, ilk növbədə, pərakəndə olan hissələri möhkəmləndirmək, onları vahid rəhbərlik altına gətirmək üçün mərkəzi hərbi idarəetmə orqanlarının təşkilinə diqqət yetirildi. Qısa müddət ərzində Hərbi Nazirliyin aparatı yaradıldı. Hərbi Nazirliyin təşkili barədə hökumət qərarından iki həftə sonra, noyabrın 15-də ordunun Ümumi Qərargahının təsis edilməsi barədə S.Mehmandarovun müvafiq əmri imzalandı.

Mudros müqaviləsinin şərtlərinə görə, müttəfiq dövlətlər adından Bakıya gəlməli olan ingilis qüvvələri komandanı general V.Tomson hələ Azərbaycana qədəm qoymamışdan əvvəl tələb edirdi ki, 1918-ci il noyabrın 17-dək türk qoşunları kimi, Azərbaycan qoşunları da Bakını tərk etsinlər. Çünki Tomson Bakı şəhərini istər iqtisadi baxımdan, istərsə də hərbi-siyasi baxımdan mühüm strateji mərkəz sayırdı və ona nəzarəti tamamilə öz əlində saxlamaq istəyirdi. O, müstəqil Azərbaycan hökumətini tanımaq istəmədiyi kimi, onun nəzarəti altında olan hərbi qüvvələrə də etibar etmirdi. Ona görə 1918-ci il noyabrın 22-də Hərbi Nazirlik Gəncəyə köçdü və öz fəaliyyətini burada davam etdirdi. Bütün hökumət strukturları Bakıda yerləşdiyi halda, Hərbi Nazirliyin Gəncəyə köçürülməsi, şübhəsiz ki, bu strukturla hökumət orqanlarının əlaqələrində və bütünlüklə ordunun formalaşma prosesində çətinliklər yaradırdı. Bununla belə, Hərbi Nazirliyin rəhbərliyinin səmərəli fəaliyyəti ordu quruculuğu prosesində bir ardıcıllıq yaratdı. Bu istiqamətdə düzgün siyasətin formalaşması və onun yerinə yetirilməsi üçün yüksək təşkilatçılıq işlərinin həyata keçirilməsi qısa zaman ərzində öz nəticəsini verdi. Həmin səmərəli fəaliyyətin nəticəsi idi ki, Cümhuriyyət ordusunun əsas qüvvələri də, məhz Hərbi Nazirliyin Gəncədəki fəaliyyəti zamanı təşkil edilmişdi.

Hərbi Nazirlik yaradılana kimi mövcud olan hissə və birləşmələr başlıca olaraq Gəncədə və Qarabağda yerləşdirilmişdi. Bu da tarixi şəraitlə və qoşun hissələrinin icra etdikləri vəzifələrlə bağlı idi. Hərbi Nazirlik Gəncədə yerləşəndən dərhal sonra - 1918-ci il noyabrın 27-dən dekabrın 3-dək ordu rəhbərliyi Gəncə və Ağdam ətrafında yerləşən hərbi hissələrə səfər etdi və oradakı vəziyyətlə şəxsən tanış oldu. Hərbi nazir hələ türk qoşunları Azərbaycanda olarkən təşkil edilmiş bu hissələrdə çox ciddi nöqsanlarla rastlaşdı və bu nöqsanları ümumiləşdirərək, xüsusi əmr imzaladı və hissə komandirlərindən belə nöqsanların aradan qaldırılmasını tələb etdi. Hər şeydən əvvəl hissə və bölmə komandirləri qarşısında vəzifə qoyuldu ki, müstəqil Azərbaycan Ordusunda xidmət edən bütün şəxslərin dərhal Azərbaycan Xalq Cümhuriyyətinə sədaqət andı içməsi təşkil olunsun.

Nazirlər Şurasının 1918-ci il 25 dekabr tarixli qərarı ilə tam artilleriya generalı Səməd bəy Mehmandarov hərbi nazir təyin edildi. Hökumətin 1918-ci il 29 dekabr tarixli qərarı ilə general-leytenant Əliağa Şıxlinski hərbi nazirin müavini təyin edildi.

Hərbi Nazirliyin rəhbərliyi ordu və dövlət arasındakı münasibətlərin mahiyyətini kifayət qədər dəqiqliklə müəyyənləşdirmiş və bütün fəaliyyəti boyu ona riayət etmişdi. S.Mehmandarov əmrlərində dəfələrlə qeyd etmişdi ki, ordu heç bir siyasətə qarışmamalı, ona tapşırılan vəzifələrin icrası ilə məşğul olmalıdır. Məhz bu tələbi rəhbər tutmağın nəticəsi idi ki, respublika hökumətinin bir neçə kabineti təşkil edilsə də, Hərbi Nazirliyin rəhbərliyi dəyişməz qalmışdı. S.Mehmandarov və onun silahdaşlarının prinsipiallığı, ardıcıllığı bütün kabinetlər tərəfindən yüksək qiymətləndirilmişdi. Yeni qurulan hökumətlərin rəhbərləri Hərbi Nazirliyin rəhbərliyini dəyişməz olaraq saxlamışdılar.

Hərbi Nazirliyin rəhbərliyi orduda xidmətin təşkilinin hüquqi əsasda nizamlanmasına xüsusi diqqət yetirirdi. Qısa müddət ərzində Azərbaycan Ordusunun yeni qanunvericilik bazasının yaradılması mümkün olmadığı üçün, hərbi nazirin 1919-cu ilin əvvəlində imzaladığı əmrlə 1917-ci il yanvarın 1-dək keçmiş Rusiya imperiyasında qəbul edilmiş hərbi qanunvericilik aktları qüvvədə saxlanılırdı. Buraya hərbi nizamnamələr, döyüş təlimatları, xidmətin bütün sahələrini tənzimləyən sənədlər, səfərbərlik, hərbi məhkəmə işlərinin aparılması üzrə təlimatlar və s. daxil idi. Ancaq bu qanunvericilik aktlarının Azərbaycanın müstəqilliyi, milli orduda xidmətin bu və ya digər tələbləri ilə uyğun gəlməyən tərəfləri ləğv edilir və nazirin əmri ilə həmin məqamlar təkmilləşdirilir, ya da yenisi ilə əvəz edilirdi. Məsələn, nazir hələ 1918-ci il dekabrın 27-də 34 saylı əmri ilə hərbi qulluqçular arasında salamlaşmanın Azərbaycan dilində və azərbaycanlılar arasındakı salamlaşma ənənələrinə uyğun olaraq aparılmasını tələb edirdi. Yəni, salamlaşan şəxs “salam” deməli, qarşı tərəf isə “əleyküm salam” deyə cavab verməli



idi. Əsgəri tərifləyərkən və ya ona minnətdarlıq bildirərkən “mərhəba” deyilməli, əsgər isə cavabında “çox sağ ol” deməli idi.

Azərbaycan dili orduda da dövlət dili elan edildi. Bununla bağlı hərbi nazir orduda xidmət edən qeyri-azərbaycanlı zabitlər qarşısında belə bir tələb qoydu ki, bir ay müddətində heç olmasa, komanda sözlərinin azərbaycanca qarşılıqlarını öyrənsinlər və əsgərlərə Azərbaycan dilində komanda versinlər. Bir ay müddətində bu tələbi yerinə yetirə bilməyən zabitlər dərhal ordudan xaric edilməli idilər.

Azərbaycan dilinin öyrənilməsi və savadsızlığın ləğvi üçün orduda müvafiq kurslar yaradıldı və həmin kursların aparılmasına təcrübəli mütəxəssislər cəlb edildi.

Azərbaycan döyüşçüsünün mənəvi dünyasının yaradılmasında mənsub olduğu xalqın tarixi keçmişinin öyrənilməsinə, onun qəhrəmanlıq nümunələri üzərində tərbiyələndirilməsinə böyük əhəmiyyət verilirdi. S.Mehmandarov yazırdı: “Bolşevizmə qarşı mübarizənin istiqamətlərindən biri xalq içərisində sağlam milli hisslərin yaradılmasıdır. Azərbaycanın yaranmaqda olan gənc ordusu üçün bu xüsusilə lazımdır. Yalnız azərbaycanlılardan təşkil olunmuş hərbi qüvvələrimiz öz xalqının ümumdünya tarixinin səhifələrinə yazmış olduğu və bizdən daha çox Avropa xalqının xatırlayıb danışdıqları çoxlu igidlikləri, şərəfli döyüş keçmişini bilməlidirlər. Bir əsrdən də artıq davam edən rus ağalığından xilas olmuş türk xalqı bilməlidir ki, biz heç də həmişə əsarətdə olmamışıq, həm də öz iradəmizi Avropa və Asiyaya nümayiş etdirmişik. Güman edirəm türk tarixinin bilicilərindən kimsə xalqımızın müxtəsər tarixini və bu günümüzə qədər olan ən mühüm hadisələri əks etdirən kütləvi kitabçaların tərtib və nəşr edilməsinin kiməsə tapşırılması faydalı olardı. Belə kütləvi tarixi nəşrlər xalq arasında və qoşunlarda geniş yayılmalı, bunun üçün hər bir kənd müəllimi, hər bir müsəlman zabit ondan geniş istifadə etməlidir”.

Qoşunların şəxsi heyətinin milli tarixi köklərə bağlanması və onların mənəvi saflaşması baxımından Novruz bayramlarının ümumordu miqyasında qarşılanmasının və keçirilməsinin təşkilinə xüsusi diqqət yetirilirdi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycan Ordusu iki dəfə Novruz bayramını qarşılamış və hər ikisini də təntənəli şəkildə keçirtmişdi. Novruz bayramının qeyd edilməsi əsl bayram əhval-ruhiyyəsində həyata keçirilirdi. Hər iki bayram da qoşunların rəsmi keçidi ilə şəxsi heyətin yadında qalmışdı.

1919-cu ilin Novruz bayramı ərəfəsində hərbi nazirin imzaladığı əmrə əsasən, şəxsi heyət üç gün təlimdən azad edildi. Bu əmrə əsasən, bütün hissələrdə bayram süfrəsi açıldı və qoşunlara bayram yeməyi verildi.

Hərbi Nazirliyin bərpasının ilk günlərindən hərbi qulluqçuların geyim formasının da milliləşdirilməsi və onun Azərbaycan Ordusuna uyğunlaşdırılması üçün də zəruri işlərin görülməsinə başlandı və bunun üçün xüsusi komissiya yaradıldı. Komissiyanın işinə hərbi nazirin müavini, general-leytenant Ə.Şıxlinski sədrlik edirdi. Komissiyanın hazırladığı geyim layihəsi 1919-cu il yanvarın 1-də hərbi nazirin əmri ilə rəsmi şəkildə təsdiq edildi. Ancaq buna qədər Hərbi Nazirlik fəaliyyətə başlayarkən nazirin əmri ilə geyim formasında qismən dəyişiklik edilmişdi. Həmin dəyişiklik əsasən baş geyiminə aid idi. Nazir tələb edirdi ki, yeni geyim layihələri hazırlanana kimi furajkalar baş geyimi kimi istifadədən birdəfəlik götürülsün və papaqla əvəz edilsin. Furajkaların papaqla əvəz edilməsi üçün nazir bir ay vaxt ayırmışdı.

Azərbaycan Ordusunda tətbiq edilən yeni geyim formasının maraqlı elementlərindən biri paqonlar idi. Həm hərbi qulluqçular, həm də orduda qulluq edən məmurlar paqon gəzdirirdilər və həmin paqonların üzərində ərəb əlifbası ilə “Azərbaycan” sözü yazılmalı idi.

Yeni dəyərlər üzərində qurulan ordunun yeni milli kadrlarının hazırlanması da Hərbi Nazirliyin rəhbərliyinin qarşısında dayanan mühüm vəzifələrdən biri idi. Bu vəzifənin həllinə nail olmaq üçün hələ türk qoşunlarının Azərbaycanda olduğu vaxt Gəncədə fəaliyyətə başlamış hərbi məktəbin işi yenidən quruldu və onun statusu artaraq praporşiklər məktəbinə çevrildi. Məktəbdə təlim-tərbiyə prosesi də yeni statusa uyğun olaraq yenidən quruldu. Bu statusun mahiyyəti ondan ibarət idi ki, əgər əvvəlcə məktəbi bitirənlər ilkin zabit rütbəsini yalnız hissələrdə bir neçə ay xidmət etdikdən və zabitliyə layiq olduqlarını sübut etdikdən sonra alırdılarsa, praporşiklər məktəbini bitirənlər dərhal ilkin zabit rütbəsi olan praporşik rütbəsinə layiq görülürdülər. Bu ilin sonunda isə praporşiklər məktəbinin bazasında Hərbiyyə məktəbi açıldı. Bundan başqa, Azərbaycan Ordusuna milli hərbi kadrlar hazırlayan İstehkam məktəbi və hərbi dəmiryolçular məktəbi və hərbi feldşer məktəbi də açılmışdı.

Yaradıldığı ilk gündən Hərbi Nazirliyin qarşısında dayanan mühüm vəzifələrdən biri də xidmətə çağırış və səfərbərlik işinin təşkili məsələsi idi. Çağırış və səfərbərliyin təşkili yeni nazirliyin rəhbərliyi üçün nə qədər aktual idisə, müvafiq səmərəli tədbirlər sisteminin tətbiq edilməsi də o qədər vacib idi. Görülmüş tədbirlər nəticəsində ADR hökumətinin artıq 40 minlik nizami ordusu var idi.

*metodiki vəsait*

# İNFEKSİYALAR - ÜMUMBƏŞƏRİ PROBLEMLƏRDƏN BİRİ KİMİ

***Müasir dövrümüzdə ümumbəşəri problemlərdən biri də infeksiyaların insanlar arasında getdikcə yayılması və xəstəliklərin daha ağır keçməsidir. Bu kimi infeksiyalar sırasında ən çox yayılanları hepatit, sifilis və QİÇS kimi infeksiyalardir.***

**VİRUSLU HEPATİT** - Müxtəlif viruslar tərəfindən törədilir və törədicisindən asılı olaraq hepatit A, hepatit B, hepatit C, hepatit D, hepatit E kimi növləri vardır. Bu virusların diaqnostikası üçün hər birinin uyğun olaraq qanda markerləri aşkar olunur.

**HEPATİT A** - olduqca yoluxucu xəstəlik olub kəskin enterovirus infeksiyasıdır. Əhali arasında sarılıq kimi tanınan bu xəstəliyin digər adı Botkin xəstəliyidir. Xəstəliyin simptomları-solğunluq, ürəkbulanma, halsızlıq, saralma, temperatur və sidiyin rənginin tündləşməsidir. Virusun genomu 1 zəncirli RNT-yə malikdir. Tək antigenə - hepatit A antigeninə malikdir. Xəstəliyi aşkar etmək üçün seroloji metodlarla qanda bu antigenlərə qarşı yaranmış antitellər - ANTİ-HAV İgM müəyyən olunur. Normada bu antitellər qanda aşkar olunmur. Xəstəliyə yoluxma zamanı isə bu antitellər hələ inkubasiya dövründə - xəstəliyin əlamətlərinin meydana çıxmasından 5-10 gün öncə aşkar olunur. Müayinə immunoferment analiz (İFA) üsulu ilə aparılır. Kəskin dövrlərdə titrdə yüksək göstərici göstərir. Bu antitellər orqanizmdə 6 ay müddətində qala bilər. Lakin kəskin dövrdə göstərilən rəqəm xəstəliyin kəskin dövrü keçdikcə azalır və sonda qandan itir. HAV İgG isə bu xəstəliyin kəskin dövrü keçdikdən sonra – rekonvolessensiya mərhələsində qanda əmələ gəlir. Bu, diaqnostik əhəmiyyət daşımır, sadəcə bu infeksiyaya nə vaxtsa yoluxmanın göstəricisidir (retrospektiv diaqnostika). Xəstəlik adətən yaz, payız aylarında aktivləşir və uşaqlar, yeniyetmələr arasında (80%) xüsusən yayılmışdır.

**HEPATİT B** - antroponoz virus infeksiyasıdır. DNT tərkibli virus olub qaraciyər hüceyrələrini zədələyir. Virionlar xarici lipoproteid təbəqəsindən və 2 saplı DNT-yə malik nukleokapsiddən təşkil olunmuşdur. Mürəkkəb antigen xüsusiyyətləri vardır və bu xüsusiyyətlər hepatit B virusunun markerlərini müəyyən edir:

- Səthi antigen (Avstraliya antigeni) virionun lipoproteid təbəqəsinə daxildir. HbsAg-hepatit B virusunun markeri olub virusa yoluxma halının göstəricisidir.
- Nüvə (core) antigeni virionun nukleokapsidinin tərkibinə daxil olub virusun reproduksiyasının (çoxalmasının) göstəricisidir. Diaqnostikada M və G formaları təyin olunur.
- HbeAg virionun nüvəsinin tərkibində olub virusun aktivlik dərəcəsini, virulentliyinin göstəricisidir.
- HbxAg virion qişasının yaxınlığında yerləşir, infeksiyanın genezində rolu hələ də araşdırılır.

Hepatit B virusunun aşkar olunması üçün qanda bu markerlərin müayinələri aparılaraq diaqnoz qoyulur. Qanda HbsAg təyini zamanı pozitiv nəticə alınarsa, bu, kəskin və ya xroniki hepatit B xəstəliyindən xəbər verir. Markerlərin aşkar olunması seroloji reaksiyalarla təyin olunur. Aparılan müayinələr zamanı həm antigenlər, həm də anticisimlər aşkar oluna bilər. Hepatit B-nin diaqnostikasında daha gənc metod sayılan PZR-polimeraza zəncirvari reaksiyaları ilə infeksiyanın DNT-si aşkar olunur ki, bu daha dəqiq diaqnoz qoyulmasında böyük əhəmiyyət kəsb edir. PZR metodu ilə qanda virusun miqdarını da müəyyən etmək mümkün olur ki, bu da müalicədə böyük əhəmiyyət kəsb edir. Hepatit B virusu son dövrlərdə sürətlə yayılmışdır. Dünyada hər il 50 milyon insan bu virusa yoluxur, dünya əhalisinin 2/5 (2 mlrd.) hissəsi bu virusa yoluxmuş vəziyyətdədir. Azərbaycanda 18-60 yaş qrupuna daxil olan 50 min nəfərdən çox şəxsin orta hesabla 3,5%-nin hepatit B-yə yoluxduğu aşkarlanıb.

**HEPATİT C** - eyni adlı virusla inkişaf edən bir xəstəlik olub qaraciyəri zədələyir. RNT tərkibli virus olub əsasən posttransfuzion hepatitlərin yaranmasına səbəb olur. Xəstəliyin mənbəyi kəskin və xroniki hepatit C xəstələri və virus daşıyıcılarıdır. Xəstəliyin əlamətləri əsasən yorğunluq, çəkinin azalması, qripəbənzər simptomlar, əzələ və oynaq ağrıları, sağ qabırğaaltı ağrılar, diareya, qusma və sairdir. Yoluxmuş orqanizmlərin 40-75%-də xəstəlik simptomsuz keçir, 50-75%-də xroniki hepatit C formalaşır, 20%-də isə qaraciyər serrozu ilə fəsadlaşır. Xronikləşən hepatit C simptomsuz olur və təsadüfən qanda aşkar olunur. Yoluxma qanla baş verir. Eyni iynə istifadə olunarkən, peyvəndlər, döymə, eyni təraş bıçağı və diş fırçasını istifadə etmək bu virusa yoluxma ilə nəticələnə bilər. Diaqnostikası seroloji üsullarla aparılır. Qanda hepatit C-yə qarşı yaranmış antitellər müayinə olunur. Bu antitellər artıq xəstəliyin 2-ci həftəsində əmələ gəlir. Qanda 8-10 il ərzində qalır və tədricən miqdarı azalaraq, qanda itir. Xroniki hepatit C xəstələrində antitellər həmişə yüksək titrlərlə müəyyən olunur. Hazırda müayinələr qanda hepatit C-yə qarşı xroniki xəstəliklərin göstəricisi olan İgG -nin aşkar olunması ilə aparılır. Lakin xəstəliyin kəskin dövründə aktiv olan İgM immunoqlobulinlərinin də aşkar edilməsi üçün müxtəlif tədqiqatlar və təcrübələr aparılmaqdadır. Diaqnozun dəqiqləşdirilməsi üçün immunblot metodu ilə virusun genetik zülalları aşkar olunur. Bu metod İFA üsulunun spesifikliyi üçün istifadə edilir. Dünyada təxminən 130-170 milyon insan hepatit C-yə yoluxmuş vəziyyətdədir. Dünya əhalisinin 4%-də aşkar olunan bu virus Azərbaycanda əhalinin təqribən 3%-də tapılır.

**HEPATİT D** - virus infeksiyası olub hepatit B ilə birgə ko və ya superinfeksiya formasında təzahür edir. Bu virusun xəstəliyi çox zaman ağır gedişata və pis proqnoza malikdir. Viruslar yalnız qaraciyər hüceyrələrində replikasiya olunur. 2 formada təzahür edə bilər. Koinfeksiya - eyni zamanda həm B, həm də D virusuna yoluxma, superinfeksiya-hepatit B xəstələrinin hepatit D-yə yoluxması. İnfeksiyaya yoluxma kəskin olub sağala və yaxud da xroniki formaya keçə bilər. Hepatit D virusuna yoluxma zamanı qanda hepatit B virus markerləri - ANTİ HBc və HBsAg tapılmaya da bilər. Belə ki, bu virus hepatit B virusunun replikasiyasını ləngidir. Müayinəsi seroloji üsullarla qanda hepatit D-yə qarşı İgM və İgG immunoqlobulinlərinin təyininə əsaslanır. Hazırda hepatitlərin yayılmasının qarşısını almaq məqsədilə müvafiq tədbirlər həyata keçirilir. Onun əsasını isə kompleks profilaktik tədbirlərin həyata keçirilməsi və əhalinin hepatit B-yə qarşı peyvənd olunması təşkil edir. Xəstələrin müalicəsi üçün virusa qarşı terapiya üsulları tətbiq edilməklə onların sayı azaldılır. Bu cür xəstələrin sayının məhdudlaşdırılması nəinki müvafiq infeksiyaların potensial mənbələrinin sayını azaldır, həm də gələcəkdə qaraciyər serrozundan əziyyət çəkən “yeni” xəstələrin azalmasını təmin edir.

**SİFİLİS** - xroniki xəstəlik olub olduqca yoluxucu və zöhrəvidir. Xəstəliyə yoluxma zamanı dərinin, selikli qişaların, daxili orqanların, sümük və sinir sisteminin zədələnməsi baş verir. Xəstəliyin törədiciləri - qıvrım, sapşəkilli, hərəkətli, solğun troponemalar (troponema palladium) asanlıqla dəridəki və selikli qişalardakı zədələrdən orqanizmə daxil olur. Xəstəlik əsasən cinsi yolla ötürülür, lakin xəstənin istifadə etdiyi müxtəlif əşyalar vasitəsilə, o cümlədən qanla təmas oluna biləcək yerlərdən, məsələn, diş müalicəsində istifadə edilən alətlərdən keçə bilər. Diaqnostikası seroloji metodlarla aparılır və xəstəlik aşkar olunarsa, xəstə qeydiyyata düşür və xəstənin bütün ailə üzvləri yoxlanılaraq nəzarətə götürülür. Seroloji üsullarla İFA metodu ilə aparılan müayinə sifilisin müayinəsi üçün 95% həssaslığa, 100% spesifikliyə malikdir. Xəstəliyin yoluxmasının 2-ci həftəsində sifilisə qarşı qanda İgM antitelləri yaranır. Müalicə zamanı İgM antitellərinin miqdarı azalır və sonda qanda itir. İgG antitelləri isə qanda 20 ilə qədər saxlanıla bilər və xəstəliyin xroniki formalarının tapılmasında mühüm rol oynayır. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünyada hər il təqribən 12 milyon insan sifilisə yoluxur. Azərbaycanda isə təqribən hər il 1000-ə yaxın insan bu virusa yoluxur. Yoluxanlar içərisində kişilərin sayı qadınların sayından daha çoxdur.

**QİÇS** - İnsanın immunçatışmazlığı virusu tərəfindən (İİV) törədilən xəstəlikdir. Əsas əlaməti qanda immun sistemdə mühüm rol oynayan CD-4 hüceyrələrinin miqdarının azalmasıdır. QİÇS o zaman yaranır ki, İİV-lə yoluxan xəstədə CD-4-ün miqdarı kəskin azalır və bu zaman opportunistik infeksiyalar-vərəm, pnevmoniya, onkologiya və bu kimi xəstəliklər meydana çıxır. Bu xəstəliyə yoluxma əsasən 3 yolla baş verə bilər:

- cinsi yolla;
- damardaxili inyeksiyalar zamanı;
- transplasentar və laktasiya zamanı (cift vasitəsilə və anadan uşağa süd verərkən).

Xəstəliyin təzahürü yoluxmadan bir qədər sonra və yaxud da 20 il sonra da ola bilər. Bu xəstələr əsasən yoluxduğu hər hansı bir infeksiya və yaxud onkoloji hüceyrələrin aktivləşməsi səbəbi ilə bədxassəli şişlər səbəbi ilə ölür. Diaqnostikası seroloji metodlarla aparılır. Son dövrlərdə ilkin olaraq aşkar olunan İİV müayinəsi təkrar olaraq 3 dəfə aparılır və sonda diaqnoz immunoblot və PZR metodu ilə dəqiqləşdirilir. 2017-ci ildə aparılan statistikaya əsasən, 18,2 milyon nəfər bu xəstəliyə yoluxmuş, bunlardan 910 min uşaq ölmüşdür.

**12576 saylı hərbi hissənin**
**Funksional diaqnostika**
**şöbəsində həkim-laborant,**
**tibb xidməti leytenantı**
**Vüsalə Əliyeva**

## Allah rəhmət eləsin

Daxili Qoşunların Veteranlar Şurası ehtiyatda olan **baş gizir Nəciyev Yusif Böyükağa oğlunun vaxtsız** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16075 saylı hərbi hissənin Komandanlığı çavuş Şəhriyar Nuriyevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.**
**Redaktor: X.Hacızadə**

**REDAKSİYANIN ÜNVANI:**
**AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.**
**Əlaqə telefonları: 560-22-63**

**Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.**

**Şəhadətnamə 3565**
**Sayı 3000**